

# Uşaq-gənclər idman-şahmat məktəblərinin idmançıları Azərbaycan birinciliyində uğurlu nəticə əldə edib

Stolüstü-tennis üzrə 2004-2006, 2007-ci il və daha kiçikyaşlı oğlan və qızlar arasında Azərbaycan birinciliyi keçirilib.

Birincilikdə 2004-2006-cı il təvəllüdlü oğlan və qızlar arasında uşaq-gənclər idman-şahmat məktəbinin idmançıları şəxsi və komanda hesabında yüksək nəticə əldə edib. Belə ki, oğlanlar arasında şəxsi yarışlarda 1 nəfər I, 1 nəfər II və 1 nəfər III, qadınların şəxsi yarışında 1 nəfər II, 2 nəfər III, oğlanların qoşa yarışında 2 nəfər I, 2 nəfər II, 3 nəfər III yeri, qızların qoşa yarışında 2 nəfər I, 4 nəfər III, qarışıq qoşa yarışlarda 1 nəfər I, 2 nəfər II, 2 nəfər III yeri tutub.

2004-2006-cı il təvəllüdlü oğlanların komanda yarışında 1 nömrəli idman liseyinin komandası I yeri, Sumqayıt şəhər 1 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbi II yeri, Salyan rayon uşaq-gənclər idman-şahmat məktəbinin komandası III yeri, qız komandaların mübarizəsində 1 nömrəli respublika ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin komandası I, Sumqayıt şəhər 1 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbinin komandası və Şabran rayon uşaq-gənclər idman-şahmat məktəbinin komandası III yeri tutub.

2007-ci il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında keçirilən görüşlərdə oğlanların şəxsi yarışında 1 nəfər I, 1 nəfər II, 2 nəfər III, qızların şəxsi yarışında 1 nəfər I, 1 nəfər II, 2 nəfər III, oğlanların qoşa yarışında 2 nəfər I, 2 nəfər II, 4 nəfər III, qızların qoşa yarışında 2 nəfər I, 2 nəfər II, 3 nəfər III, qarışıq qoşa yarışlarda 1 nəfər I, 2 nəfər II, 4 nəfər III yeri tutub.

2007-ci il və daha kiçik təvəllüdlü oğlanların komanda yarışında 1 nömrəli idman liseyi birinci komandası I yeri, Sumqayıt şəhər 1 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbi II yeri, 1 nömrəli idman liseyinin ikinci komandası və Şabran rayon uşaq-gənclər idman-şahmat məktəbinin komandaları III yeri, qız komandaları arasında Sumqayıt şəhər 1 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbinin komandaları I, II və III yeri, növbəti III yeri isə Şabran rayon uşaq-gənclər idman-şahmat məktəbinin komandası tutub.

Azərbaycan müəllimi.- 2022.- 22 aprel.- S.16.